1_Layout 1 24.02.2023 17:06 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 4 (643)

28 fevral 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# SÜLHÜN ŞƏRTLƏRİNİ BAKI DİKTƏ EDİR

## Azərbaycanın qətiyyətli mövqeyi Münhen Təhlükəsizlik Konfransından bir daha bəyan edildi

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu “Sülhün şərtlərini Bakı diktə edir” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Prezident İlham Əliyevin qlobal və regional məsələlərlə bağlı mövqeyi, baxışları nüfuzlu beynəlxalq tədbirlərdə daim diqqət çəkir. Bir neçə gün əvvəl keçirilən 59-cu Münhen Təhlükəsizlik Konfransı bunu növbəti dəfə nümayiş etdirdi.

İlham Əliyevin keçirdiyi görüşlər, iştirak etdiyi “dəyirmi masa” və iclas bir daha göstərdi ki, Azərbaycan Prezidenti qlobal səviyyədə ehtiramla qarşılanan siyasi liderdir. Eyni zamanda Münhen Təhlükəsizlik Konfransı Azərbaycanın həm İkinci Qarabağ müharibəsindən sonrakı reallıqlarla, həm də qlobal məsələlərlə bağlı qətiyyətli siyasət yürütdüyünü beynəlxalq ictimaiyyətə bir daha təqdim etdi.




### Qlobal enerji təhlükəsizliyi prosesində Azərbaycanın yeri daha aydın görünür

Artıq bir neçə onillikdir ki, enerji təhlükəsizliyi məsələsi qlobal müzakirələrin ən aktual mövzuları sırasında yer alır.

Təsadüfi deyil ki, 59-cu Münhen Təhlükəsizlik Konfransında “dəyirmi masa”lardan biri enerji təhlükəsizliyi məsələsinə həsr olunmuşdu. Xüsusilə qeyd etməliyik ki, hazırkı həssas şəraitdə Azərbaycanın qlobal enerji təhlükəsizliyi prosesindəki yeri və rolu daha aydın görünür. Bu baxımdan Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən “Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi” mövzusunda “dəyirmi masa”da Prezident İlham Əliyevin iştirakına və söylədiyi fikirlərə maraq olduqca böyük idi.

“Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi” mövzusunda “dəyirmi masa”da Prezident İlham Əliyev bildirib ki, ötən il Azərbaycanın qaz təchizatının artırılması qısamüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə verilən töhfə idi. Orta və uzunmüddətli perspektivdəki hədəf isə Azərbaycan tərəfindən irəli sürülən “Cənub qaz dəhlizi”nin genişləndirilməsidir.

Məlum olduğu kimi, Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoyur. Söhbət yaxın gələcəkdə ölkəmizdən Avropaya elektrik enerjisinin ötürülməsindən gedir.

### Biz haqqın, ədalətin tərəfdarıyıq

Vətən müharibəsində torpaqlarını işğaldan azad edən Azərbaycan yaranmış yeni reallıqlar müstəvisində öz maraqlarını qətiyyətlə təmin edir. Görünən odur ki, rəsmi İrəvan köhnə oyunlarını təkrarlasa da, öhdəliklərini yerinə yetirməmək üçün min hoqqadan çıxsa da, sülh müqaviləsindən yayınmaq üçün mahiyyəti üzrə olmayan şərtlər irəli sürsə də, Azərbaycan Ermənistanı buna məcbur edəcək.

Münhendə Prezident İlham Əliyevin ABŞ Dövlət katibi Antoni Blinken və Ermənistan baş naziri Nikol Paşinyan ilə birgə görüşü və “Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması” mövzusunda plenar iclası bir daha göstərdi ki, münasibətlərin normallaşdırılması ilə bağlı müzakirələrdə Azərbaycan öz mövqeyini qətiyyətlə təmin edir və Ermənistanın bu prosesə kölgə salan cəhdlərinə imkan verilməyəcək.

Bu yerdə xatırladaq ki, hələ 3 il əvvəl Münhen Təhlükəsizlik Konfransında Nikol Paşinyan nə qədər mətləbdən yayınıb, ənənəvi erməni üslubunda yalanlar söyləsə də, Prezident İlham Əliyevin siyasi-diplomatik peşəkarlığı qarşısında özünü ifşa etmiş, aciz duruma düşmüşdü. Azərbaycan Prezidentinin hücum diplomatiyası erməni yalanlarını darmadağın etmişdi. Və elə bu gedişat göstərirdi ki, torpaqlarımızın işğaldan azad ediləcəyi tarix çox uzaqda deyil. Bundan cəmi bir neçə ay sonra Azərbaycan güc yolu ilə torpaqlarını azad etdi.

59-cu Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyev və Ermənistanın baş nazirinin iştirakı ilə keçirilən görüşdə və plenar iclasda əsasən münasibətlərin normallaşdırılması ətrafında müzakirələr aparıldı. Ən əsası odur ki, ötən dəfə erməni yalanlarını ifşa edən Azərbaycan bu dəfə sülh müqaviləsi ətrafında öz şərtlərini qətiyyətlə diktə etdi. Dövlət başçısının dediyi kimi, bu sülh müqaviləsi beynəlxalq norma və prinsiplər əsasında tərtib edilməlidir və orada Qarabağ haqqında hər hansı müddəanın olması qeyri-mümkündür. Münhen Təhlükəsizlik Konfransında o da bəyan olundu ki, Qarabağ məsələsi hər hansı bir formada Azərbaycanla Ermənistan arasında imzalanacaq sazişə daxil edilməyəcək. Ermənistan tərəfinin Laçın yolunun bağlanması ilə bağlı iddialarına gəldikdə isə Prezident İlham Əliyev bu mövzu ətrafında da Paşinyanın yalanlarını faktlarla ifşa etdi.

Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyi konstruktiv olmaqla, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Prezident İlham Əliyev bunu həm ABŞ Dövlət katibi Blinkenin təşəbbüsü ilə keçirilmiş görüşdə, həm də “Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması” mövzusunda plenar iclasda ifadə edib. İlham Əliyevin dediyi kimi, biz haqqın, ədalətin tərəfdarıyıq və daxili işlərimizə kənar qüvvələrin qarışmasına heç vaxt imkan verməmişik və imkan verməyəcəyik.

# Azərbaycan və Qazaxıstan respublikalarının Daxili İşlər nazirlikləri arasında memorandum imzalanıb



Fevralın 22-də Qazaxıstan Respublikasının Daxili işlər naziri polis general-polkovniki Marat Axmetjanovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə ikigünlük rəsmi səfərə gəlib.

Nazir Marat Axmetjanov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Həmin gün Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarını və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir V.Eyvazov bu səfərin iki dost ölkənin daxili işlər orqanları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladan nazir hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

Qazaxıstan Respublikasının Daxili işlər naziri polis general-polkovniki Marat Axmetjanov səmimi qəbula və



yüksək qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirərək ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, həyata keçirilən islahatlar barədə nazir V.Eyvazova məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyini bildirib.

Görüş zamanı nazirlər “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında Memorandum”u imzalayıblar.

Qəbulda ölkəmizin Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ağalar Atamoğlanov, Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimov və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Qazaxıstan Respublikasındakı nümayəndəsi polis polkovnik-leytenantı Ənvər Zöhrabbəyli iştirak ediblər.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının “N” saylı hərbi hissəsinə, Polis Akademiyasına, Təhlükəsiz Şəhər Xidmətinə və “102 – Zəng Mərkəzi”nə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış olublar.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 24.02.2023 15:05 Page 1



# QARDAŞ ÖLKƏYƏ GÖNDƏRİLƏN YARDIMLARIN TƏHLÜKƏSİZLİYİ TƏMİN OLUNUB

Bu il fevralın 6-da qardaş ölkə olan Türkiyənin bir neçə şəhərində baş vermiş güclü zəlzələ nəticəsində irimiqyaslı dağıntılar yaranıb, çoxlu sayda insan faciəvi şəkildə həlak olub və yaralanıb. Türkiyənin üzləşdiyi bu dəhşətli təbii fəlakətin nəticələri xalqımızı dərindən sarsıdıb. Azərbaycan Türkiyəyə ilk yardım göstərən və köməyini yetirən ölkə oldu. Bu istiqamətdə dövlətimizin atdığı vacib addımlarla yanaşı, vətəndaşlarımız tərəfindən də xeyli miqdarda müxtəlif yardımlar toplanaraq qardaş ölkəyə göndərilib.






Qeyd edək ki, sözügedən yardımların mütəşəkkil toplanması və təhlükəsiz göndərilməsi üçün



də zəruri tədbirlər görülüb. Belə ki, fevralın 8-dən 17-dək Heydər Əliyev adına İdman-konsert Kompleksi və Bakı İdman Sarayında yardımların qəbulu, çeşidlənməsi və yüklənməsi təşkil edilib. Verilən tapşırığa uyğun olaraq, Daxili Qoşunların Xidməti itlərin yetişdirmə məntəqəsinin və 67987 saylı hərbi hissəsinin istehkamçı yarımqrupunun şəxsi heyəti tərəfindən 24 saat ərzində xidməti vəzifələrin icrası təmin olunaraq çeşidli yardımların tərkibi yoxlanılıb. İstehkamçı və kinoloq hərbi qulluqçularımız sayıqlıq göstərərək qarşıya qoyulan tapşırıqları peşəkarlıqla yerinə yetiriblər. Daxili qoşunların baş idarəsinin qərargahının mühəndis xidmətinin baş zabiti polkovnik-leytenant Vüqar Məmmədov, xidməti itlərin yetişdirmə məntəqəsinin rəisi mayor Pərviz Əliyev, 67987 saylı hərbi hissənin kimya-mühəndis xidmətinin rəisi mayor Polad Şirinovun iştirakı ilə xidmətin yüksək səviyyədə təşkili və aparılması nəticəsində yardımların təhlükəsizliyi təmin olunub.

**Mətbuat xidməti**

# HƏRBİ ORKESTR MUSİQİ ƏNƏNƏLƏRİMİZƏ SADİQDİR

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının təşkilində, şəxsi heyətə vətənpərvərlik əqidəsinin, mədəni-estetik dünyagörüşünün aşılanmasında Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin xüsusi rolu var. Rəsmi mərasimlər, əlamətdar günlər münasibətilə tədbirlərin keçirilməsini orkestrsiz təsəvvür etmək çətindir. Repertuarında hərbi marşların, vətənpərvərlik ruhunda mahnıların üstünlük təşkil etdiyi hərbi orkestr zəngin yaradıcılıq potensialına və geniş fəaliyyət təcrübəsinə malikdir.



1994-cü il noyabrın 17-də yaradılmış Daxili Qoşunların Nümunəvi



göstərici hərbi orkestri fəaliyyət göstərdiyi ötən dövrdə, sözün əsl mənasında, nümunəvi olduğunu sübut edib. Yarandığı gündən Daxili Qoşunlarla birgə addımlayan, istər çətin, istərsə də əlamətdar və sevincli günlərdə şəxsi heyətin döyüş ruhunun yüksəldilməsini özünə şərəf borcu bilən orkestrin kollektivi milli musiqi ənənələrimizə, vətənpərvərlik əqidəsinə hər zaman sadiqdir.

Kapitan Mail Mailov hazırda orkestrin rəisidir. O, 2021-ci ildən bu vəzifədədir. Orkestrin nəzdində mahnı ansamblı fəaliyyət göstərir. Azərbaycan Respublikasının Xalq artisti kapitan Fidan Hacıyeva-Naylor orkestr rəisinin müavini – ansamblın rəisidir. Orkestr rəisinin müavini - hərbi dirijor isə baş leytenant Elşad Cəfərovdur.

Orkestrin rəisi bildirdi ki, musiqiçilərin istifadə etdikləri saz, tar, qarmon, klarnet, truba, alt saksafon, tenor saksafon, bariton, trombon, tuba, böyük və kiçik təbil, nağara, valtorna, piatti, sintezator, eləcə də digər musiqi alətləri geniş konsert proqramlarının təşkilinə, ifaçılıq potensialının gücləndirilməsinə imkan verir: "Azərbaycan Respublikasının Əməkdar artisti kapitan Zaur Əmiraslanov orkestrin hərbi dirijoru, Azərbaycan Respublikasının Əməkdar artisti gizir Vəsilə İbrahimova, digər gizirlər Nuranə Mailova, Amin Təhməzov orkestrdə konsertmeystr, işçilər Amil Məmmədov və Aygün Mahmudova isə mahnı ansamblının solistləridirlər. İfaçılıq dəstxətti ilə fərqlənən orkestrin repertuarına dünya ölkələrinin məşhur bəstəkarlarının, eləcə də Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Qara Qarayev, Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Tofiq Quliyev kimi görkəmli Azərbaycan bəstəkarlarının əsərləri, xalq mahnıları daxil edilib".

Kapitan M.Mailov əlavə etdi ki, orkestrin repertuarında müxtəlif janrda musiqilər səsləndirilir, lakin milli ruhlu marşlar və vətənpərvər mahnılara üstünlük verilir.

Kollektiv indiyədək rəsmi tədbirlərdə, müxtəlif idarə və təşkilatlarda, mədəniyyət ocaqlarında, ölkənin televiziya kanallarında uğurlu çıxışlar edib. Daxili Qoşunların Ali Hərbi Məktəbində kursantların, hərbi hissələrdə xidmətə qəbul olunmuş çağırışçıların andiçmə mərasimlərində də orkestrin kollektivi iştirak edir. Həmçinin onlar tərəfindən təşkil edilən konsert proqramları şəxsi heyətin əhval-ruhiyyəsini yüksəldir, vətənpərvərlik hissini gücləndirir, musiqiyə marağını artırır.

Bu gün orkestrin normal fəaliyyəti üçün lazımi şərait mövcuddur. Texniki avadanlıqlar, musiqi alətləri, səsgücləndiricilər saz vəziyyətdə saxlanılır. Yaradılmış hərtərəfli şəraitin Daxili işlər naziri və Daxili qoşunların komandanı tərəfindən göstərilən xüsusi diqqət və qayğının təzahürü olduğunu vurğulayan orkestr rəisi kollektivin öz peşəkarlığını artırmaq, Daxili Qoşunların adını hər zaman ucaltmaq üçün bundan sonra da əzmlə çalışacağına söz verdi.

**kapitan Şahin Cəfərzadə**

# ZABİT KOMANDO KURSUNU MÜVƏFFƏQİYYƏTLƏ BAŞA VURAN GƏNC ZABİTLƏRİMİZ

Artıq 12 ildir ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbində savadlı, vətənpərvər, yiyələndiyi hərbçi peşəsini ürəkdən sevən, sağlam mənəvi-psixoloji duruma malik hərbi qulluqçular hazırlanır. Belə gəncləri görmək həqiqətən də sevindirici və qürurvericidir.



Qəzetimizin müxtəlif saylarında davamlı olaraq burada təhsil alan, nümunəvi xidmətilə seçilən kursantlarımızı oxucularımıza tanıtmışıq. Bu dəfə isə qəbul imtahanında yüksək bal toplayaraq digər kursantlardan fərqləndiklərinə görə Daxili qoşunlar komandanının müvafiq əmrinə əsasən, Türkiyə Respublikası Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında təşkil olunan Zabit Komando Kursunda iştirak edən 2 zabiti sizə təqdim etmək istəyirik.

Leytenant Elvin Səmədzadə 1999-cu il avqustun 12-də Zərdab rayonunun Çallı kəndində anadan olub. 2005-2016-cı illərdə Çallı kənd orta məktəbində təhsil alıb. Orta təhsilini başa vurandan sonra 2017-ci ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olunub. Onun ən böyük arzusu Daxili Qoşunların xüsusi təyinatlısı olaraq xidmətdə irəliləməkdir.

Leytenant Qadir Məmmədov 2000-ci il yanvarın 4-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda doğulub. 2002-ci ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçdüyünə görə uşaqlıq və yeniyetməlik illəri paytaxtda keçib. 2006-2017-ci illərdə Bakıda Rəşid Baxışov adına 218 saylı tam orta məktəbdə təhsil alıb. Orta təhsilini uğurla başa vurduqdan sonra Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olunub.

Qeyd edək ki, hər iki zabit Türkiyə Respublikasının Jandarm Sahil Mühafizə Akademiyasında ali hərbi təhsil alıb. Təhsillərini başa vurduqdan sonra, 2022-ci il avqustun 29-dan etibarən Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında Zabit Komando Kursunda iştirak ediblər.

Kursu tamamladıqdan sonra, 2023-cü ilin 10 fevral tarixində Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığının rəhbər heyəti tərəfindən nümunəvi zabitlərimizə sertifikatlar və döş nişanları təqdim edilib.

**kapitan Nigar Ağayeva**

# YÜKSƏK DÖYÜŞ VƏ MƏNƏVİ-PSİXOLOJİ HAZIRLIĞI İLƏ FƏRQLƏNƏN BÖLÜK

Daxili Qoşunların Ali Hərbi Məktəbinin intizamı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən olan komendant bölüyünün başlıca vəzifəsi məktəbin döyüş bayrağının, anbarlarının etibarlı mühafizəsi və müdafiəsini təşkil etməkdir. Bölüyün şəxsi heyəti bu istiqamətdə qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirir.



Bölük komandiri kapitan Camulla Bəndəliyev xidmətin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edildiyini qeyd edərək, bir sıra məqamlara aydınlıq gətirdi. Bildirdi ki, xidmətə cəlb edilməndən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: "Hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır".

Bölük komandiri xidmətin aparılmasında vacib olan şərtləri diqqətə çatdırdı. Qeyd etdi ki, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olması olduqca önəmlidir. Bununla yanaşı, postda xidmət aparan zaman saatdarın ayıq-sayıqlıq, çeviklik, cəsarət nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edir. Xidmətin təşkili zamanı müvafiq hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsi başlıca amildir.

Bundan əlavə, xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Onların sağlamlığını, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən kapitan C.Bəndəliyev digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi: "Təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir".

Bölük komandiri vəzifələrinin icrasında fərqlənən hərbi qulluqçulardan baş leytenant Məzahir Ağalarov, kiçik gizir Tofiq Məmmədov, baş çavuşlar




Ramil Dənziyev, Xəqani Albalıyev, çavuşlar İlqar Məmmədov, İlkin Əsədli, əsgərlər Canşah Təhməzli və Ziyəddin Yaralıyevin adlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ HİSSƏLƏRDƏ ŞƏXSİ HEYƏTİN HÜQUQİ BİLİKLƏRİ ARTIRILIR

Hərbi Prokurorluq işçiləri hərbi hissələrdə hərbi qulluqçularla görüşüblər.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, birgə tədbirlər planlarına əsasən, Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi-Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri baş ədliyyə müşaviri Firad Əliyevin və Gəncə Hərbi prokuroru ədliyyə polkovniki Şöhrət Qəhrəmanovun Müdafiə Nazirliyinin və Daxili Qoşunların "N" saylı hərbi hissələrində hərbi qulluqçularla görüşü zamanı əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin unudulmaz xatirəsi bir dəqiqəlik sükutla anılıb, qazilərə şəfa arzulanıb.





Ardınca Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlardan, o cümlədən Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbədən, eləcə də bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən, xalqın əzmkarlığından və Silahlı Qüvvələrin qüdrətindən bəhs edilib.

Bundan sonra, Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını hərbçilərə çatdıran F.Əliyev və Ş.Qəhrəmanov şəxsi heyətin hüquqi biliklərinin daha da artırılması məqsədilə hərbi qulluqçular qarşısında çıxış edib, onları maraqlandıran sualları cavablandırıb, eyni zamanda, şəxsi heyətin qayğı və problemləri ilə maraqlanıblar.

Hərbi Prokurorluq işçiləri tərəfindən mütəmadi olaraq həyata keçirilən bu kimi görüşlər davam etdirilir.

**AZƏRTAC**

3_Layout 1 24.02.2023 17:09 Page 1



*Şəhidlərimiz*

# İSTEDADLI ŞAİR VƏ VƏTƏNPƏRVƏR DÖYÜŞÇÜ KİMİ XATIRLANACAQ...

44 günlük Vətən müharibəsində qazandığımız böyük hərbi zəfərlə torpaqlarımızın işğal altında qalmasına son qoyuldu və yüz minlərlə məcburi köçkünün üzərindən bu ad götürüldü. Qürurlu qələbəmizi reallığa çevirən əsas amillər kimi dövlət başçımızın liderlik məharətini və sərkərdə qətiyyətini, eləcə də xalqımızın birliyini, dəyanətini, həmçinin qeyrətli oğullarımızın döyüş meydanında yenilməzlik, hünər göstərdiklərini qeyd etmək olar. Azərbaycanda elə bir bölgə yoxdur ki, oraya müharibə zamanı şəhid tabutu gətirilməsin və sakinləri arasında qazilər olmasın. Şəhidlərimiz və qazilərimiz bütöv və bölünməz Azərbaycanın mənəvi ruhunun, hərbi ənənələrinin daşıyıcıları olaraq düşmənə qarşı mətinliklə vuruşdular. Bununla onlar həm də öz el-obalarının və ailələrinin adlarını ucaltdılar.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 44 günlük Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından biri də çavuş Ömərov Orxan İmran oğludur. O, 1991-ci il oktyabrın 17-də Azərbaycanın gözəl guşələrindən olan Quba rayonunun Qonaqkənd qəsəbəsində doğulub. Ömərovlar ailəsinin ortancıl və yeganə oğul övladı idi. Atası İmran Ömərov 2000-ci ildə dünyasını dəyişib. Anası Rəna Ömərova hazırda işləmir, evdar qadındır. Orxanın Gülzədə və Albina adlı bacıları var.

Səfalı təbiəti və qonaqpərvər sakinləri olan Qonaqkənddə böyüyərək boya-başa çatan Orxan öz ailəsinin, nəslinin, el-obasının layiqli yetirməsi kimi yaddaşlarda qalıb. Babası Ömər Ömərov 1941-1945-ci illərdə faşistlərə qarşı döyüşmüş, ön cəbhədən sağ dönmüşdü. Müharibə veteranı olmuş və 2007-ci ildə vəfat etmiş babası ilə Orxan həmişə qürur duyub.

Qonaqkənd qəsəbə orta məktəbi 1941-1945-ci illərdə alman faşist ordusuna qarşı qəhrəmancasına döyüşərək 3 ordenə layiq görülmüş Aslan Aslanovun adını daşıyır. Orxan bu məktəbin məzunudur. Çalışqan şagird olub, əsas təhsil haqqında şəhadətnamədə ona bütün fənlərdən "yaxşı" qiymət yazılıb.

Qeyri-adi istedadı, yaradıcı dünyagörüşü ilə yeniyetmə dövründən fərqlənib. Diqqətçəkən bədii təxəyyülünün bəhrəsi olan müxtəlif mövzulu şeirləri ərsəyə gətirib, el məclislərində meyxana janrında çıxışlar edib. Şair olaraq özünə Orxan Qubalı təxəllüsünü götürüb.

Hələ məktəbli olduğu vaxtdan idmanla da maraqlanıb, fiziki hazırlığına ciddi yanaşıb, xüsusən qarşıdakı hərbi xidməti üçün bunun vacibliyini düzgün anlayıb.

Ailə üzvlərinin dediklərinə görə, Orxan xaraktercə dürüst, xeyirxah, cəsarətli, ünsiyyət qurmağı bacaran, dostluğa dəyər verən, ailəcanlı gənc olub.

2010-cu ilin yanvar ayında Orxan müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində hərbi



xidmət keçib. Tərtər rayonunun Qazyan kəndində düşmənlə təmas xəttində torpaqlarımızın müdafiəsində dayanıb. 2011-ci ilin iyul ayında hərbi xidmətdən tərxis olunub.

Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət mülki sahələrdə işləyib, halal zəhməti ilə ailəyə maddi köməyini əsirgəməyib.

2013-cü ilin mart ayının 29-da Orxan öz arzusu ilə Daxili Qoşunların tərkibində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Belə bir qərar verməsində hərbçi peşəsinə rəğbəti xüsusi rol oynayıb. Həmçinin Daxili Qoşunların dövlətimiz naminə mühüm xidməti-döyüş fəaliyyəti barədə öyrəndiyi məlumatlar onu bu addımı atmağa həvəsləndirib. Daxili Qoşunların sıralarında öncə 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun radiotelefonçu-atıcısı, sonra 17074 saylı hərbi hissəyə keçirilərək xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcı-sanitarı və nəhayət, 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcısı vəzifələrinə təyin edilib. Öz funksional vəzifələrini, qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirərək komandanlığın etimadını doğruldub. Dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb. Hərbi xidməti dövründə döyüş və mənəvi-psixoloji hazırlığı üzrə müsbət cəhətdən fərqlənib. Təhkim olunan silahların xüsusiyyətlərini mükəmməl bilib. Vətənpərvər əqidəli hərbi qulluqçu olaraq daim özünü döyüş sınaqlarına hazırlayıb.

Silahdaşları ilə əlaqə saxlayaraq Orxanın xidmət və döyüş yolu barədə onların xatirələrini dinlədim, danışdıqları maraqlı məqamları qeydə aldım.

Vətən müharibəsi iştirakçısı, 17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin idarə heyətinin texniki baş çavuş Hilal Əliyev məlumat verdi ki, Orxan 2013-2019-cu illərdə orada xidmət edib. Özünə qarşı tələbkar, xidmətə can yandıran, icraçılığında heç kimdən geri qalmayan, təmkinli, iradəli hərbi qulluqçu olduğunu söylədi. Hərbi kollektivdə yoldaşlıq mühitinin qorunması üçün səy göstərib. Hilal bildirdi ki, 2015-2016-cı illərdə dəstənin şəxsi heyəti polis əməkdaşları ilə birgə bölgədə silahlı cinayətkarların, narkotiklərin axtarılması, qaçaqmalçılıq hallarının qarşısının alınması, ictimai təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərdə iştirak edib. Bu zaman Orxan ayıq-sayıqlıq, əzmkarlıq baxımından seçilib.

67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Nicat Gülməmmədov da Vətən müharibəsi iştirakçısıdır. Söhbət zamanı Orxanı 2019-cu ilin noyabr ayından tanıdığını dedi. Tabeliyində olmuş Orxanı nizam-intizamlı, bacarıqlı, yoldaşlıqda etibarlı, istənilən çətinliyin öhdəsindən gələn, meyxana ustasına xas qabiliyyətlə silahdaşlarına xoş ovqat aşılayan hərbi qulluqçu kimi xatırladığını nəzərə çatdırdı. Təlimlərdə çeviklik, məharət nümayiş etdirdiyini, atıcılıq üzrə yarışlarda uğurlu nəticələr göstərdiyini bildirdi. Xüsusi vurğuladı ki, paytaxtımızda koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması zamanı Orxan verilən tapşırıqları layiqincə yerinə yetirib.

Yarımqrup komandirinin sözlərinə görə, Vətən müharibəsi başladıqda öncə ehtiyat qüvvə qismində 16077 saylı hərbi hissəyə göndəriliblər. Hərbi hissədə döyüş tapşırıqlarının icrasına hazırlıq görülüb. Oktyabrın ortalarına yaxın Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları ilə birlikdə döyüşlərə qatılıblar. Qeyd etdi ki, Orxanın döyüş yolu Füzuli, Xocavənd, Xocalı rayonlarından və Şuşa ətrafındakı ərazilərdən keçib. Snayper silahından sərrast atəşlə erməni işğalçılarına qan uddurub. Göstərilən istiqamətlərdə azad edilmiş ərazilərimizin müdafiəsi, təcavüzkardan qalmış silah-sursatın, texnikanın axtarılması, düşmənin diversiya-kəşfiyyat qruplarının mövqelərimizin ətrafına sızmasının qarşısının alınması və hücum əməliyyatlarında Orxan öndə gedib, qətiyyətlə vuruşub, qələbəmizə inanıb. Nicat söylədi ki, söhbətlərin birində Orxan "ayağım, qolum olmasın, dözərəm, ancaq evə sağ qayıdım, atam rəhmətə gedib, anam təkdir, mənə ehtiyacı var" - deyib.

Baş çavuş N.Gülməmmədov danışdı ki, Şuşa istiqamətində irəliləyən döyüşçülərimizin bir qrupuna Laçın-Şuşa yolunu bağlamaq, bu istiqamətdən düşmənin təminatını kəsmək tapşırığı verilib. Yolu nəzarətə götürməyə imkan verən mühüm yüksəkliyi ələ keçirərək orada mövqeləniblər. İşğalçıların həmin yüksəkliyi geri almaq və yolu açmaq cəhdləri dəf edilib. Düşmən buna cavab olaraq yüksəklikdəki mövqelərimizi artilleriyadan və tanklardan şiddətli atəşə tutub. Noyabrın 6-dan 7-nə keçən gecə sözügedən yüksəklik növbəti dəfə intensiv



atəşə məruz qalarkən hərbi qulluqçularımızdan leytenant Qəzənfər Məmmədov, çavuşlar Orxan Mirzəyev, Orxan Ömərov və kiçik çavuş Mikayıl Mikayılzadə şəhid olublar, onlarla döyüşçü isə ağır yaralanıb.

67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri, Vətən müharibəsi iştirakçısı gizir Cavid Məmmədov Orxanın son döyüşünü belə xatırladı: "Şəhid olduqdan öncə azad etdiyimiz yüksəklikdən mənimlə birlikdə yaralıları endirib, yenidən mövqeyə qayıdarkən pusquya düşdük. Məcbur qalıb, başqa istiqamətdən yüksəkliyə qalxdıq. İrəliləyən zaman yüksəklik düşmən tərəfindən artilleriya vasitələri və zirehli texnikadan ardıcıl atəşə tutulurdu. Mərmilərdən biri mənimlə Orxanın 10-12 metrliyinə düşdü, bizdən bir az kənarda çavuş Asiman Əzimov dayanmışdı, aralıqda qaya vardı, qəlpələr daşa dəydi, amma partlayış dalğasından yüngül barotravma aldıq. Oranı tərk edərək daldalanacağa sığındıq, bir az söhbətləşdik. Qalxıb mövqeyə keçəndə məni baş çavuş Nicat Gülməmmədov və çavuş Ruhulla Qeybullayev səslədilər. Yenə mərmilər partladı. Orxan tələsik digər mövqeyə keçdi. Bir neçə dəqiqədən sonra onun olduğu yerə mərmilər düşdü. Ora tələsəndə Orxanın və başqa döyüşçülərin şəhid olduqlarını gördük. Nəşinin təxliyyəsi zamanı şəxsi əşyalarını üzərinə bağladıq".

Vətən müharibəsi iştirakçısı, 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun pulemyotçusu baş çavuş Hüseyn Quliyev Orxan haqqında silahdaşlarının söylədiklərini təsdiqlədi. Şəhidin xatirəsinin həmişə anıldığını vurğuladı. Redaksiyamıza Orxanla bağlı maraqlı şəkillər göndərdi.

2020-ci il noyabrın 20-də Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən tərtib olunan ölüm haqqında şəhadətnamədə çavuş O.Ömərovun 2020-ci il noyabrın 8-də Şuşada hərbi əməliyyat nəticəsində qəlpələrlə zədələnmələr, başın boyun səviyyəsindən amputasiyası səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid 2020-ci il noyabrın 11-də Qonaqkənd qəsəbəsinin qəbiristanlığında atasının məzarı yanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Azərbaycan Respublikası Müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə çavuş O.Ömərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Şəhidin bibisi oğlu Seyfur Yunusov Vətən müharibəsi qazisidir. Hər iki Qarabağ müharibəsində Qonaqkənd qəsəbəsinin 14 nəfər sakini şəhidlik zirvəsinə ucalıb. Qəsəbədə şəhid xüsusi təyinatlının adına küçə var. Ailəsinin yaşadığı evdə isə xatirə guşəsi düzəldilib.

Xaçmaz şəhərindəki Abamüslüm Səlimov adına 7 saylı tam orta məktəbin 3 b sinfinə Orxanın adı verilib.

"Qələbə şəhidləri" kitabının III cildində və "Quba şəhidlərinin ev muzeyləri" kitabında Orxan haqqında məlumatlar dərc olunub. Şəhidin bibisi oğlu, həkim Fərrux Nəsrullayevin dəstəyi ilə döyüşçüyə həsr olunan "Şəhid şair" kitabı işıq üzü görüb. Şairlər Aqşin Qubalı və Əkbər Abıyev igid xüsusi təyinatlı haqqında şeirlərin müəllifləridir. Ayrı-ayrı televiziya kanalları tərəfindən hazırlanan süjetlərdə Orxanın döyüş yolu işıqlandırılıb.

Sağlığında öz yaradıcılığı ilə o, geniş tanınıb. Ürəklərə yol tapan şeirləri onun söz yadigarlarıdır. Şeirlərinin səsləndirildiyi disk də buraxılıb. Vətən müharibəsindən sağ qayıtsaydı, oxucularına, dinləyicilərinə neçə-neçə yeni şeir ərməğan edəcəkdi.

Döyüş sınaqları ilə üz-üzə qalmaq və ölümün nəfəsini duymaq həyatın fədakarlıq imtahanıdır. Vətən naminə şəhadətə ucalan saf mənəviyyatlı oğul kimi Orxan daim ehtiramla anılacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

---

*Qazilərimiz*

# "VƏTƏN UĞRUNDA VURUŞMAĞA BU GÜN DƏ HAZIRAM"

Tariximizin şanlı səhifələrindən biri olan 44 günlük Vətən müharibəsi zamanı xüsusi təyinatlılarımız erməni işğalçılarının başını əzərək, əsl qəhrəmanlıq nümunələri göstəriblər. Cəsur hərbi qulluqçularımızı tanıtmaq, həmçinin onların şərəfli döyüş yolunu təbliğ etmək gənc nəslin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından ən vacib amillərdən biridir.

Beləliklə, "Qazilərimiz" rubrikasının sizlərə təqdim etdiyimiz budəfəki qəhrəmanı Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sabiq hərbi qulluqçusu, ehtiyatda olan baş çavuş Əhmədov Vasif Sultanəhməd oğludur.

O, 1986-cı il martın 10-da Goranboy rayonunun Qarqucaq kəndində anadan olub. Orta təhsilini Azərbaycanın Milli Qəhrəmanı, şəhid Yunis Nəcəfovun adını daşıyan Qarqucaq kənd tam orta məktəbində alıb. Özünün də qeyd etdiyi kimi, kənd mühitində böyüyərək boya-başa çatıb, hərbi xidmətə çağırılanadək təsərrüfat işlərində çalışmaqla valideynlərinə hər zaman dəstək olub. Müddətli həqiqi hərbi xidmətini 2004-cü ilin aprel ayından 2005-ci ilin oktyabr ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışıb. Lakin hərbi xidmətə olan böyük marağı səbəbindən yenidən ordu sıralarına qayıtmağa qərar verib. Beləliklə, 2013-cü ilin may ayından Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin atıcısı vəzifəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2015-ci ilin iyun ayından 16075 saylı hərbi hissədə xidmətini davam etdirən baş çavuş V.Əhmədov əvvəlcə xüsusi vasitələrin tətbiqi dəstəsində, 2018-ci ilin noyabr ayından etibarən isə xüsusi təyinatlı dəstənin ayrı-ayrı qruplarının tərkibində vəzifə borclarını layiqincə yerinə yetirib. Baş çavuş V.Əhmədovun yüksək döyüş hazırlığı və nümunəvi xidməti



komandirləri tərəfindən hər zaman müsbət qiymətləndirilib, müxtəlif mükafatlara layiq görülüb. Bununla yanaşı, hərbi hissənin komandanlığı tərəfindən onun nümunəvi xidməti nəzərə alınaraq, 2021-ci ilin fevral ayından xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçısı vəzifəsinə irəli çəkilib.

Xidmət etdiyi dövrdə Vasif Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (hazırda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi) Göygöl rayonu ərazisində təşkil etdiyi istehkamçı ixtisası üzrə kursu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib.

Hər zaman iştirak etmək arzusunda olduğu Vətən müharibəsi başlayanda isə, özünün də qeyd etdiyi kimi, işğalçı düşmənə qarşı sonsuz nifrət və intiqam hissi ilə döyüşlərə qatılıb. Baş çavuş V.Əhmədov silahdaşları ilə birgə Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin tərkibində Füzuli, Cəbrayıl rayonları, həmçinin Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində gedən hərbi əməliyyatlarda fəal iştirak edib, bir çox yaşayış məntəqəsinin və mühüm yüksəkliklərin azad edilməsində əsl döyüşçü kimi fərqlənib. Vasifin sonuncu döyüşü də məhz Qırmızı Bazar qəsəbəsi istiqamətində olub. Belə ki, 2020-ci il oktyabrın 27-də bu yaşayış məntəqəsi ətrafında gedən döyüş zamanı düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində o, kəllə-beyin travması və sol diz nahiyəsindən dəlib keçən qəlpə yarası alıb. Bu döyüş barədə xatirələrini bizimlə bölüşən qazimiz yaralandığı zaman silahdaşlarının göstərdiyi yardımı əsla unutmayacağını dedi: "Yaralandığım zaman bizimlə birgə eyni qrupun tərkibində vuruşan Müdafiə Nazirliyinin xüsusi təyinatlısı baş gizir Firuz Əhmədov (2022-ci il sentyabrın 12-də Ermənistan ordusu tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı şəhid olub) cəld bir şəkildə özünü mənə yetirdi, ilk tibbi yardım olaraq ağrıkəsici iynə vurdu, yaramı sarıdı və qanaxmanın qarşısını aldı. Ümumiyyətlə, bu döyüşdə mənimlə birgə dəstə komandirimiz mayor Ələsgər Muxtarov, baş çavuş Elmar İsmayılzadə, çavuş Əli Bayramov, MAXE əsgər İsmayıl Mamedov, eləcə də Müdafiə Nazirliyinin beş nəfər xüsusi təyinatlısı yaralandı, iki nəfər silahdaşımız - kiçik gizir Fuad Tağıyev və MAXE əsgər Musa Əsgərov şəhidlik zirvəsinə yüksəldi.

Olduğumuz ərazilər ermənilər tərəfindən minalandığından yaralıları təxliyyə etmək üçün avtomobillərin gələ bilməyəcəyini bildirdilər. Nisbətən təhlükəsiz yerlərdə mövqelənib, havanın qaralmasını gözlədik. Gecə ilə bir təhər, səhərədək piyada şəkildə xeyli yol qət edib, arxada bizləri gözləyən təxliyyə qrupuna yetişə bildik. Oktyabrın 28-də təxliyyə olunduq. Əvvəlcə Cəbrayıl rayonu ərazisində təşkil olunmuş tibb məntəqəsinə, orada tibbi yardım göstərildikdən sonra Füzuli Rayon Mərkəzi Xəstəxanasına gətirildim. İki gün burada qaldıqdan sonra Saatlı Rayon Mərkəzi Xəstəxanasına göndərildim. Burada müayinə olunduqdan və iki gün qaldıqdan sonra isə məni Daxili Qoşunların Hərbi Qospitalına gətirdilər. Həkimlərimizin sayəsində sağlamlığım qismən bərpa olunsa da, tam sağalmağım üçün ambulator müalicəmi bu gün də davam etdirirəm".



Vasifin bildirdiyinə görə, onu ən çox məyus edən isə yaralanması səbəbindən Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edə bilməməsidir: "Heyif ki, Şuşa döyüşlərində iştirak edə bilmədim. Lakin buna baxmayaraq, zərurət olarsa, Vətən uğrunda vuruşmağa bu gün də hazıram".

Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamı ilə baş çavuş V.Əhmədov "Cəbrayılın azad olunmasına görə", Azərbaycan Respublikası Müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", həmçinin Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli sərəncamına əsasən, "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli müvafiq əmri ilə cəsur xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib. Qaziyə, həmçinin "Müharibə veteranı" vəsiqəsi təqdim edilib.

Vətən müharibəsi iştirakçısı, 16075 saylı hərbi hissədə "Əqrəb" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri mayor Ələsgər Muxtarov baş çavuş V.Əhmədovu əsl vətənpərvər döyüşçü kimi xarakterizə etdi. Bildirdi ki, bir zamanlar dəstənin nümunəvi və intizamlı hərbi qulluqçusu olmuş Vasifi Vətən müharibəsi qazisi kimi həm hərbi hissənin komandanlığı, həm də sıralarımızda xidmət edən silahdaşları bu gün də böyük hörmət və ehtiramla qarşılayırlar.

Qeyd edək ki, baş çavuş V.Əhmədov səhhətinə görə 2022-ci ilin aprel ayından Silahlı Qüvvələrə ehtiyata buraxılıb.

Şərəfli döyüş yolu keçən qazimizə tezliklə sağlamlığına qovuşmasını arzulayır və bundan sonrakı həyatında ona yalnız uğurlar diləyirik.

**mayor Anar Əhmədov**

4_Layout 1 24.02.2023 17:12 Page 1



# DAYANIQLI RABİTƏNİN TƏŞKİLİ MÜHÜM VƏZİFƏDİR

İstər xüsusi əməliyyatlar, istərsə də keçirilən kütləvi tədbirlər zamanı qarşıya qoyulan tapşırıqların vaxtında və uğurla icra edilməsində peşəkar rabitəçilərimizin müstəsna xidmətləri var. Ən müasir rabitə avadanlıqları ilə təchiz edilən Daxili Qoşunların Dayaq rabitə qovşağı da döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlayır.

Dayaq rabitə qovşağı rəisinin müavini baş leytenant Murad Mirzəyevlə söhbət zamanı məlum oldu ki, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmri ilə təsdiq edilmiş “Dayaq rabitə qovşağının şəxsi heyətinin döyüş və ictimai-siyasi hazırlıq proqramı”na, eləcə də təqvim planına uyğun olaraq, hər həftənin cümə axşamı günləri bütün şəxsi heyətlə radiomeşğələ keçirilir. Məşğələnin keçirilməsində əsas məqsəd rabitəçilərin bilik və bacarıqlarının artırılması, qazandıqları təcrübədən səmərəli istifadə edərək hər an qarşıya çıxa biləcək tapşırıqların öhdəsindən layiqincə gəlməsidir.



Zabit həmçinin bildirdi ki, Dayaq rabitə qovşağının şəxsi heyəti ilə keçirilən təlimlərdə atəş, fiziki və ixtisas hazırlığı üzrə hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına xüsusi önəm verilir. O bildirdi ki, keyfiyyətli və fasiləsiz rabitə əlaqəsini, informasiya mübadiləsini təmin etmək məqsədilə gündəlik olaraq hərbi qulluqçular müvafiq növbətçilik cədvəlinə əsasən döyüş xidmətini təşkil edib aparırlar.

Dayaq rabitə qovşağı rəisinin tərbiyə işləri üzrə müavini baş leytenant Eltac Səfərli də öz növbəsində bəzi məqamlara aydınlıq gətirdi: “Ümumilikdə götürdükdə, Dayaq rabitə qovşağının qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin vacib vəzifələrindəndir”.

Onu da qeyd edim ki, Dayaq rabitə qovşağının bir sıra hərbi qulluqçuları döyüş bölgəsində bölmələr arasında qarşılıqlı radioəlaqəni təmin etmək məqsədilə elə ilk günlərdən torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan 44 günlük Vətən müharibəsində iştirak ediblər. Bu zaman bütün növ radiorabitə əlaqələri fasiləsiz təmin olunub, rabitə vasitələrinə yeni çağırışlar yazılaraq, döyüş meydanında olan şəxsi heyətə çatdırılıb. Həmçinin Daxili Qoşunların Baş İdarəsində baş idarəetmə məntəqəsi açılıb, döyüş bölgəsindən olan informasiyalar, eləcə də hərbi vəziyyətlə bağlı xidmətaparma yerlərində baş vermiş hadisələr haqqında məlumatlar toplanaraq komandanlığa təqdim edilib. Hal-hazırda da qovşağın hərbi qulluqçuları işğaldan azad edilmiş ərazilərdə texniki vasitələrlə fasiləsiz rabitə əlaqəsinin və videomüşahidənin aparılması üzrə tapşırıqları müvəffəqiyyətlə icra edirlər.

**kapitan Şahin Cəfərzadə**

# SAĞLIQ DURUMUMUZ ETİBARLI ƏLLƏRDƏDİR

Daxili Qoşunların hərbi hissələrində şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb personalının əməyi xüsusi əhəmiyyət kəsb edir.

Bu günlərdə 16075 saylı hərbi hissədə olarkən, məhz tibb xidmətinin fəaliyyəti haqqında yazmaq qərarına gəldim. Hərbi hissənin tibb xidmətinin rəisi tibb xidməti kapitanı Zaur Məsimov öz işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında” Təlimata əsasən qurur. O, xidmətin fəaliyyətindən bəhs edərkən bildirdi ki, hərbi hissə komandiri tərəfindən təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq, tibb məntəqəsi və lazaretdə günün nizam qaydası tərtib edilir. Həmin qaydaya əsasən, xəstələrin ambulator qəbulu, stasionar xəstələrin müalicə təyinatlarının icrası, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların gündəlik tibbi müayinələrinin təşkili, yeməkxanada sanitar-gigiyenik vəziyyətin yoxlanılması təşkil olunur.



Tibb xidməti kapitanı Z.Məsimov qeyd etdi ki, xidmət rəisi kimi əsas vəzifəsi şəxsi heyətin sağlamlığını qorumaq, müraciət edən hər bir hərbi qulluqçuya dərhal tibbi yardım göstərməkdən ibarətdir: “Kollektivimiz “Sağlam bədəndə sağlam ruh olar” devizi ilə xidmət aparır. Sağlamlığın əsasında isə şəxsi gigiyenanın gözlənilməsi, düzgün qidalanma, hər hansı bir narahatlığa dərhal reaksiya verərək, həkimə müraciət etmək durur. Məhz bu mövzuda bütün hərbi qulluqçularla tibb xidməti tərəfindən maarifləndirmə işləri aparılır”.

Hazırda hərbi hissədə hərbi qulluqçuların müayinəsi, kazarmaların dezinfeksiyası, əsgərlərin qaynadılmış su ilə təminatına nəzarət olunması tibb xidmətinin fəaliyyətində vacib istiqamətlərdir.

Tibb xidmətinin öz vəzifələrinin öhdəsindən gəlməsi baxımından təkcə xidmət rəisinin deyil, peşəkar personalın uğurlu fəaliyyətini qeyd etmək lazımdır. Kollektivin uğurlu fəaliyyəti nəticəsində hərbi qulluqçulara olan diqqət və qayğı günü-gündən artır. Müsbət xarakterizə olunan tibb məntəqəsində aptek rəisi-feldşer gizir İsaq Əmənov, feldşer gizir Jalə Mansurzadə, sanitar-təlimatçı dezinfektor baş çavuş Şəhla Əhmədova öz vəzifələrini bacarıqla yerinə yetirirlər.

Son olaraq qeyd etmək lazımdır ki, hazırda 16075 saylı hərbi hissənin şəxsi heyətinin sağlamlıq durumunun qorunub saxlanılmasında hissənin tibb xidməti bütün zəruri tədbirləri yüksək peşəkarlıqla həyata keçirir. Bir sözlə, hərbi qulluqçuların tibb təminatı əmin əllərdədir.

**kapitan Nigar Ağayeva**

# YEMƏKXANADA BÜTÜN SANİTAR QAYDALARA CİDDİ RİAYƏT OLUNUR

Hərbi qulluqçuların sağlamlığının qorunması və möhkəmləndirilməsi diqqət yetirilən məsələlərdən biridir. Bu baxımdan şəxsi heyətin yüksək kalorili, keyfiyyətli yeməklərlə qidalanması daim nəzarətdədir.

Ali Hərbi Məktəbin ərzaq xidmətinin rəisi mayor Sabir Əliyev qeyd etdi ki, şəxsi heyətin qidalanması müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil olunur. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların komandanlığı və məktəb rəisinin qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün lazımi bütün tədbirlər görülür. O, görülən işlərdə yeməkxana rəisi baş gizir Faiq Məmmədovun əməyini xüsusilə vurğuladı.





Baş gizir F.Məmmədov kursantların qidalanması barədə danışarkən bildirdi ki, qidalanma gündəlik olaraq üç dəfə həyata keçirilir və bu zaman kalorinin düzgün bölüşdürülməsinə xüsusi diqqət yetirilir. Həmçinin yeməkxanada bütün sanitar qaydalara ciddi riayət olunur. Qidalanmadan sonra bütün qablar iki faizli məhlulla yuyulur. Eləcə də qida şəxsi heyətə təqdim olunmamışdan əvvəl onun keyfiyyəti həkim tərəfindən yoxlanılır.

Yeməkxana rəisi gündəlik qida rasionu barədə də məlumat verməyi unutmadı. Söylədi ki, qidalanmada əsasən milli təamlara üstünlük verilir. Həftə ərzində birinci xörək olaraq düyü şorbası, noxud əzməsi, mərci şorbası, küftə, bozbaş, borş, ikinci xörək olaraq isə makaron süzməsi, lobyalı və ya mərcili düyü plovu ət qovurması ilə, qarabaşaq, dolma, kotlet kimi yeməklər verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə sentyabr ayından başlayaraq şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. Qidalanma əsasən həftəlik bölgü cədvəlinə əsasən aparılır. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Bununla yanaşı, baş gizir F.Məmmədov aşpaz-təlimatçı baş çavuş Rauf Məmiyevin, mülki işçi - aşpazlardan Natavan Əmirova, Gövhər Qənbərova, Xavər Əsgərova, Əminə Rəsulovanın fəaliyyətini müsbət xarakterizə etdi, onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməklərini əsirgəmədiklərini söylədi.

Həmçinin qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı aşpazlardan əsgərlər Nurlan Məmmədov və Səid Əliyevin də adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# ÖLKƏMİZİN İDMAN ŞƏRƏFİNİ LAYİQİNCƏ QORUYAN HƏRBİ QULLUQÇUMUZ

1993-cü ilin iyul ayının 3-də yaradılmış Daxili Qoşunların İdman komandası 25031 saylı hərbi hissənin ərazisində fəaliyyət göstərir. İdman komandasının tərkibinə olimpiya idman növləri üzrə beynəlxalq turnirlərdə, respublika çempionatlarında iştirak edən bacarıqlı idmançılar daxil edilir və müxtəlif yarışlarda göstərilən nəticələr əsas götürülür.

Respublikamızı beynəlxalq yarışlarda yüksək səviyyədə təmsil edən idmançılardan biri də 2022-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılan boksçu əsgər Murad Allahverdiyevdir.




Murad 2002-ci ilin avqust ayının 29-da Tərtər rayonunda doğulub. 2007-2018-ci illərdə Tərtər rayonu Əsəd Məmmədov adına 1 saylı orta məktəbdə oxuyub, 2018-2022-ci ilərdə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alaraq boks üzrə məşqçi ixtisasına yiyələnib.

Azərbaycan Respublikasının idman şərəfini layiqincə qoruyan əsgər M.Allahverdiyev 2007-ci ildən idmanın boks növü ilə məşğul olur. İdmana olan sevgisi zaman keçdikcə onu peşəkar idmançıya çevirib. 2017-ci ildən 2019-cu ilədək gənclər arasında keçirilən boks üzrə Azərbaycan çempionatının qalibi olmuş Murad eyni zamanda həmin illərdə gənclər üzrə boks komandasının kapitanı olub. Boks üzrə Avropa çempionatında iştirak edən idmançımız 2017-ci və 2019-cu illərdə 3-cü yerə, 2018-ci ildə isə 1-ci yerə layiq görülüb. 2020-ci ildən etibarən boks üzrə böyüklər arasında keçirilən Azərbaycan çempionatında iştirak edən Murad 3 ildir ki, ardıcıl olaraq birinciliyi qazanıb. Bununla bərabər idmançımız 2022-ci ilin noyabr ayında Polşada, dekabr ayında isə Qazaxıstanda keçirilən beynəlxalq turnirlərin qalibi olub.

Hal-hazırda idmançımız Azərbaycanın boks üzrə yığma komandasının tərkibində 2023-cü ildə keçiriləcək Dünya çempionatına əzmlə hazırlaşır.

Azərbaycan çempionatında uğurlu çıxış etməsi ilə bağlı fikirlərini bildirən Murad əldə etdiyi nəticələrdə İdman komandasında təlimatçı gizir Vüsal Gözəlovun da zəhmətinin olduğunu diqqətimizə çatdırdı.

Biz də “Əsgər” qəzeti olaraq idmançı hərbi qulluqçumuza növbəti yarışlarda qələbə qazanmasını arzulayırıq.

**kapitan Şahin Cəfərzadə**

# PEŞƏ BACARIĞI VƏ VƏZİFƏ MƏSULİYYƏTİ VACİB ŞƏRTDİR

25031 saylı hərbi hissənin intizamı, layiqli xidmətilə seçilən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından olan baş çavuş Azad Bağırov maddi-texniki təminat xidmətlərində sürücülük üzrə təlimatçı vəzifəsində xidmət edir. Hərbi hissənin avtomobil xidmətinin rəisi mayor Vüsal Qəribov tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçumuz digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.



Baş çavuş A.Bağırov 1985-ci il sentyabrın 17-də Rusiya Federasiyasının Saratov şəhərində anadan olub. 1992-2003-cü illərdə Xaçmaz rayonunun Niyazobad kəndində tam orta məktəbdə təhsil alıb. Təhsilini başa vurduqdan sonra 2006-cı ilin yanvar ayından 2007-ci ilin iyul ayınadək Müdafiə Nazirliyinin Gəncə şəhərində yerləşən “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2009-cu ildə isə hərbi xidmətə qayıtmaq qərarına gələn Azad Müdafiə Nazirliyinin Təlim-tədris mərkəzində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının kursunu müvəffəqiyyətlə bitirib, müqavilə müddəti başa çatanadək müxtəlif vəzifələrdə xidmət edib.

2013-cü ilin avqust ayından Daxili Qoşunlarda xidmətə qəbul olunub. Həmin vaxtdan hazırkı vəzifədədir. O həmişə öz üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir. Verilən tapşırıqların icrasında sayıqlıq göstərir, onları layiqincə yerinə yetirir.

44 günlük Vətən müharibəsi zamanı Azad öz üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirərək, maddi-texniki təminatların cəbhə bölgəsinə daşınmasında fəal iştirak edib.

Sürücülük üzrə təlimatçı xidmət müddəti ərzində dəfələrlə hərbi hissənin komandanlığı tərəfindən mükafatlandırılıb.

Hərbçi ləyaqətini hər şeydən üstün tutan hərbi qulluqçumuz həyatını, bütün bilik və bacarığını Vətənə xidmətə həsr etmək əzmindədir.

**kapitan Şahin Cəfərzadə**

# HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR-*

## ABŞ döyüş helikopterlərini İsrailin “Spike NLOS” raketi ilə silahlandırır

ABŞ-da AH-64 “Apache” helikopterinin İsrail istehsalı olan “Spike NLOS” tank əleyhinə idarəolunan raketləri (TƏİR) ilə atış sınaqları keçirilib. “Poliqon” “Lockheed Martin” şirkətinə istinadən xəbər verir ki, sınaq ABŞ-ın Arizona ştatında yerləşən poliqonda baş tutub.

Bildirilib ki, sınaq zamanı helikopter təyin olunmuş hədəflərə iki ədəd “Spike NLOS” raketi ilə atəş açıb və uğurla məhv edib.

İsrailin “Rafael” şirkəti tərəfindən istehsal edilən və “Spike” TƏİR ailəsinə aid olan “Spike-NLOS” 32 km-ə qədər uçuş məsafəsinə malik 5-ci nəsil çoxməqsədli raketdir. “Spike NLOS” quru, hava və dəniz platformalarından buraxıla, uçuş zamanı zərurət yaranarsa hədəfləri dəyişə və ya zərbəni tamamilə ləğv edə bilir.



TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000